**Azərbaycan Respublikası**
**Bakı Şəhər Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının**
**SƏRƏNCAMI**

---

**№ 206** **« 09 » dekabr 2024-cü il**

**Binəqədi rayonu ərazisində seçicilərlə seçkiqabağı təşviqatın aparılması məqsədilə yerlərin ayrılması haqqında**

Binəqədi rayonu ərazisində seçicilərlə seçkiqabağı təşviqatın aparılmasına şərait yaratmaq məqsədilə "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə, Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 86-cı maddəsinə və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.1.5-ci, 4.15.3-cü və 6.8-ci maddələrinə əsaslanaraq

**Qərara alıram:**

**1.** Azərbaycan Respublikasında növbəti bələdiyyə seçkiləri zamanı Binəqədi rayonu ərazisində seçicilərlə kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması məqsədi ilə müəyyən edilmiş qapalı və açıq yerlərin dislokasiyası təsdiq edilsin (dislokasiya əlavə olunur).

**2.** Rayon İcra Hakimiyyəti başçısının qəsəbə və sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinə tapşırılsın ki, qeydə alınmış namizədə, siyasi partiyaya, siyasi partiyalar blokuna vətəndaşlarla görüşlər, açıq müzakirələr təşkil edilməsində və keçirilməsində müvafiq köməklik göstərsinlər.

**3.** "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 86.7-ci maddəsinin tələblərindən irəli gələn məsələlərin həll edilməsi Binəqədi Rayon Polis İdarəsinə həvalə edilsin.

**4.** Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən, məsləhətçi (B.Cəfərovaya) tapşırılsın ki, Sərəncamın surətlərinin Binəqədi Rayon Polis İdarəsinə və digər aidiyyəti təşkilatlara göndərilməsini təmin etsin.

Scanned with CamScanner

5. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür.**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən, məsləhətçi** **Badam Cəfərova**

**№ ___**

Scanned with CamScanner